Bahar Bərdəli

# Qarabağın dayağı Bərdə - Bərdənin qüruru Şəhidlər...



BAHAR BƏRDƏLİ

# QARABAĞIN DAYAĞI BƏRDƏ, BƏRDƏNİN QÜRURU ŞƏHİDLƏR...

Bakı–2021

Redaktor:
**Aygün Bağırlı**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Bahar Bərdəli.**
**Qarabağın dayağı Bərdə, Bərdənin qüruru şəhidlər.**
Bakı: 2021,– 132 səh.

*Kitabda Qarabağın bir guşəsi olan Bərdənin Vətən müharibəsindəki iştirakından və bu müharibədə şəhid verdiyi igid, qorxmaz, vətənpərvər övladlarından bəhs edilir.*

*Həmçinin kitabda böyük şəxsiyyətlərin – Nizami Gəncəvinin, Ulu Öndər Heydər Əliyevin və Respublika Prezidenti İlham Əliyevin Bərdə haqqında dəyərli, qiymətli fikirləri də yer alıb.*

**ISBN** 978-9952-541-44-1

© B.Bərdəli, 2021




**Bərdə - Qarabağın giriş qapısı...**

**Bərdə şəhidlərinin, o cümlədən,**
**İkinci Qarabağ müharibəsində həlak olmuş**
**üç min Vətən övladının**
**əziz xatirəsinə**





**Bərdə Azərbaycanın sinəsində bir yanar ürəkdir!**




**Bərdə rayon inzibati ərazi bölgüsünün xəritəsi**



*Hərum adlanırdı bu yurd hər yerdə,*
*İndisə adına deyirlər BƏRDƏ!*
*Bu mərdlər, gözəllər yurdunda inan,*
*Çox saysız xəzinə gizlətmiş zaman.*
*Belə şux, sevimli gülşən harda var?*
*Harda var xəzinə saçan bu diyar?*

**Nizami GƏNCƏVİ**



*Yurdumuzun başına çox bəlalar gəldi. Bu meydanda çox igidlərimiz qırıldı. Amma tamam qırılıb qurtarmadıq. Hələ varıq, olacayıq, qalacayıq, artacayıq!!!*

**DƏDƏ QORQUD**



*Qarabağın bütün guşələri, o cümlədən BƏRDƏ mənim üçün daha doğma, daha əzizdir!*



**Heydər ƏLİYEV**

Azərbaycan Respublikasının ümummilli lideri



*Bərdə Azərbaycanın qədim şəhəridir, Qarabağımızın mərkəzidir. Tarixən bu diyar Şərqin ən böyük şəhərlərindən biri olmuş, mühüm mədəniyyət mərkəzi kimi tanınmışdır.*



**İlham ƏLİYEV**

Azərbaycan Respublikasının prezidenti

***Bu da mənim Bərdə haqqında poetik düşüncələrim:***

## BƏRDƏM MƏNİM

Tarixlərin daş yaddaşı,
Əsrlərin qəm sirdaşı,
Karvanların köç yurddaşı –
Qədim Bərdə - yurdum mənim,
Ulu diyar, Bərdəm mənim!

Nizaminin şövkətidir,
İsgəndərin heyrətidir,
Nüşabənin hikmətidir,
Qədim Bərdə - yurdum mənim,
Ulu diyar, Bərdəm mənim!

Bir qaladır, basılmazdır,
Bir incidir, alınmazdır,
Gülüstandır, heç solmazdır,
Qədim Bərdə - yurdum mənim,
Ulu diyar, Bərdəm mənim!!!



**Ulu Öndər Heydər Əliyev əsgərlərin arasında...**




**Azərbaycan-Türkiyə birliyi əbədidir!!!**





**Dəmir yumruq!**



***"Bir kərə yüksələn bayraq, bir daha enməz!!!"***





*Qarabağ daha bizimdir!!!*




**Bu da Şuşamızın ilk böyük festivalı !!!**




## İŞĞALDAN BÖYÜK ZƏFƏRƏ...

Bərdə hər zaman Qarabağın dayaq nöqtəsi, arxa, köməyi olub. Mən burda onun tarixindən, ulu keçmişindən, yadellilərə qarşı qəhrəmancasına mübarizəsindən, döyüşlərindən, elə buna görə dəfələrlə yerlə yeksan olmasından, dağıdılmasından, yandırılmasından, sonra təzədən, yenidən öz külündən doğulmasından, yaranmasından, böyüyüb genişlənməsindən yazmayacağam. Hər kəs bilir ki, Bərdə Azərbaycan şəhərləri içərisində ən qədimidi. Dövründə bir paytaxt şəhər kimi genişliyi, gözəlliyi, gül-çiçək içində qərq olmas ilə tanınmış, ticarət mərkəzi kimi oynadığı roluna görə Bağdatla müqayisə olunmuş, Təbrizlə, Səmərqəndlə, İsfahanla adı qoşa çəkilmişdi. Bu haqda kifayət qədər tarixi əsərlər var, onlardan bir çoxu da dərsliklərdə yer alıb.

Keçən əsrin 80-ci illəri Bərdənin çiçəklənməsi, yenidən parlaması dövrü idi. O dövrdə Respublikanın başçısı kimi Heydər Əliyevin bu rayona tez-tez gəlişi, bütün zona müşavirələrini Bərdədə keçirməsi, ətraf rayon rəhbərlərinin də buraya gəlişi Bərdənin iktisadi inkişafında lazımı rolunu oynamışdı. Bu isti münasibətlər Bərdəyə və Bərdə çamaatına verilən yüksək dəyər idi.

Varisliyi qoruyub saxlayan, atasının yolunu davam etdirən Respublika Prezidenti İlham Əliyev də Bərdəni unutmamış, Prezident seçildiyi ilk günlərdən Bərdəyə dəfələrlə səfər etmiş, onun haqqında yüksək fikir söyləmişdi: "Bərdə Azərbaycanın qədim şəhəridi, Qarabağımızın mərkəzidi. Tarixən bu diyar Şərqin ən böyük şəhərlərindən biri olmuş, mühüm mədəniyyət mərkəzi kimi tanınmışdı". Bütün bunlar – bu yüksək rəylər, fikirlər insanda xoş duyğular oyadır.

Təbiidir ki, xoş münasibətlər, xoş duyğular və ümumiyyətlə, Bərdəyə, Bərdə xalqına verilən yüksək qiymət, dəyər haqqında yetərincə danışmaq, yazmaq olar. Lakin mənim əsas məqsədim keçən əsrin 90-cı illərindən bu yana – I və II Qarabağ savaşında Bərdənin və Bərdəlilərin ermənilərə qarşı mübarizəsindən bəhs etməkdir. Hər iki müharibədə Bərdənin rolu danılmazdı! Düşmən ilk dəfə Qarabağa iddia qaldıranda, Xankəndinə (Stepanakerdə) gedən yolları bağlayıb burdan azərbaycanlıları qovmağa başlayanda bərdəlilər – onun igid oğulları dəstələnib, Ağdam cavanları ilə birlikdə ermənilərin cavabını yumruqla vermişdilər. Sözün həqiqi mənasında yumruq, qapazla, necə deyərlər, əlbəyaxa döyüşlə. Təssüf ki, o zaman xalqın

"Dəmir yumruğa" əli çatmadı, gücü yetmədi. Lakin "başbilənlərimiz" bu adi yumruğu da qadağan elədilər!!! Bəlkə də bu bizim sınağımız idi? Birləşib düşməni torpağımızdan qovmaq əvəzinə bir-birimizi günahlandırır, özümüz özümüzlə döyüşürdük! ZAMAN, DÖVRAN... HƏR SAAT, HƏR AN belə bizim əlehimizə işləyirdi... Sanki fərqində deyildik... Nəticədə Ermənilər fəaliyyətlərini genişləndirdilər. Şuşa, Laçın, Xocalı... Kəlbəcər, neçə-neçə şəhər, kənd, qəsəbə alındıqca, işğal olunduqca qaçqınların 90 faizi Bərdəyə sığındı... Bərdə bu döyüşlərdə onlarla şəhid verdi. Həm igidləri ilə bacardığı kimi döyüşdü, vuruşdu... Həm də qaçqınları, köçkünləri ağuşuna aldı. Ermənilər daxilimizdəki və beynəlxalq aləmdəki ermənilərə arxayın olduqları üçün, güvəndikləri üçün deyirdilər: "Dağlıq Qarabağ ərazisindən çıxan azərbaycanlılar, Bərdəyə yox, Kürün o üzünə qaçın! Kür çayına qədər olan ərazidə biz Erməni dövləti quracağıq!!!"

Ermənilərin bu həyasızlığı, arxayınçılığı, Azərbaycan millətinə qarşı genasid siyasəti dəhşətli idi və biz bu dəhşətin qarşısını ala bilmədik. I Qarabağ müharibəsində Dağlıq Qarabağ Muxtar Vilayəti və onun ətrafında olan yeddi rayon işğal olundu. Bir milyona qədər yerli sakinlər öz doğma evlərindən, torpaqlarından didərgin düşdü. Təkcə 1992-1993-cü illərdə yeni yaranmaqda olan hərbi hissələrdən, Könüllü dəstələrdən – Özünümüdafiyə Batalyonlarından 11 min 557 hərbiçi şəhid oldu... 50 mini isə yaralandı. O könüllü dəstələrdən biri də Bərdə Qartalları idi... Bu adı onlara mən vermişdim... Onların haqqında mətbuatda məqalələr yazmışdım... Çox təssüf ki, o könüllü

vətənpərvər dəstələr də ermənipərəst qüvvəllər tərəfindən müxtəlif damğalarla məhv edildi... Onlar güclərinin yetdiyi qədər Vətənin Bütövlüyünü, Azadlığını, Müstəqilliyini öz qanları, canları bahasına qorumağa çalışdı... bizsə onları qiymətləndirə bilmədik... Sanki yaradan da bizdən üzünü çevirmişdi... Bir tərəfdən düşmən məhv edəndə, bir tərəfdən də biz özümüz özümüzə qənim kəsilmişdik... Bütün bunlar düşmən hiyləsinin, məkirli niyyətinin, öz düşüncələrinə görə uzaqgörən siyasətinin nəticəsi idi.



**Bərdə Qartalları – Bərdə batalyonu. 1992-ci il**



**Sərhəd Zöhrabbəyov**

Ağdərə uğrunda döyüşlərdə şəhid olan Bərdə Polkunun ilk Qərargah rəisi, “Azərbaycan Bayrağı Ordeni” ilə təltif edilmişdir.

Amma bu zaman kəsiyində Bərdə dözdü, dayana bildi! O, Çadır Şəhərciyinin məkanına, məsgəninə çevrildi. Sonra bu "Şəhər"ciyin dağılmasının şahidi oldu. Onun sakinlərinin bir çoxunu başqa şəhər, rayonlara yola saldı. Bir ana öz övladını yola salan kimi... Qalanına öz qoynunda şəhər tipli Qəsəbələr saldı – Qaçqın şəhərciyi kimi tanınır bu qəsəbələr...

Heydər Əliyev gəldi hakimiyyətə. Əleyhimizə işləyən ZAMANI dayandırdı! Düşmən qırğının qarşısını ala bildi! Axan zaman özü ilə çox sellər, sular gətirdi... Və o Zaman özü də axıb keçdi... düz 30 il...

Yaralar qaysaq bağlasa da yara olaraq qalırdı. Axı Qarabağ boyda bir yara sağalardımı?!! Ocaq sönsə də, kül altında qalan köz yanmağa, alovlanmağa imkan, fürsət, şərait axtarırdı! O zamanı, şəraiti, imkanı, fürsəti Ali Baş Komandan bir payız günü göstərdi - **27 sentyabr 2020-ci il** səhər saatlarında işğal olunmuş ərazilərimizin təmaz xəttindən döyüş başladı!!! Bax beləcə 44 günlük döyüşün hər saatı, hər anı Böyük Qələbə, Zəfərlə başa çatdı!!!

İLAHİ ƏDALƏT bərpa olundu! 90-cı illərdə düşmənin bizə yaşatdıqlarını Yaradan və Böyük Ordumuz birər-birər özlərinə yaşatdı! DƏMİR YUMRUQla yaşatdı! Çevik Alayla yaşatdı! Hər bir gənc igidin ürəyi ilə, əlləriylə yaşatdı! Anaların naləsiylə, fəryadı ilə yaşatdı. Şəhidlərin ruhu ilə yaşatdı! YAŞATDI!!!

## BU PAYIZ...

Bu payız bir başqadı
Vətənin yurddaşında!
Bu payız yaşayacaq
Tarixin yaddaşında!
Hə günü bir QƏLƏBƏ,
Hər günü qəlpə-qəlpə
Düşmənin ürəyində!
Açıb yara daşı da!
ŞUŞA gözləyir hələ,
LAÇIN özləyir hələ,
GÖYÇƏ sızlayır hələ,
Boğulub göz yaşında!
Cəbrayılım sevincək,
Fizulimdən əl çək!
Az qalıb ta....bitəcək,
Bilsin yad..., sirdaşım da!
İgidlərin "Yallı"sı,
Qönçələrin allısı,
Meyvələrin ballısı,
Gözlər Vətən- daşımda,
Bilsin dost, qardaşım da!!!

4 oktyabr 2020

Bəli, bu payız – 2020-ci ilin payızı tarixin yaddaşına əbədi yazıldı. Yeddi rayon, Şuşa başda olmaqla altı şəhər, dörd qəsəbə, 286 kənd, Arazboyu, İran - Azərbaycan sərhəddi düşmən işğalından azad edildi! Bütün bunlar tarixi faktlar, həqiqətlərdi. Bir zaman arzuladığımız ata - baba yurdlarımız indi bizimlədi!!! Gec, ya tez belə də olmalı idi! Azərbaycanın qədim-qayım torpaqlarında özünə dövlət quran Ermənistan hakimiyyəti və onun havadarları biləmilidir ki, Azərbaycan xalqı Göyçəyə, İrəvana da mütləq qayıdacaq! Çox istərdik onu bizim nəsil həyata keçirsin. Amma görünür hər şeyin öz vaxtı var...

Hələ 90-cı illərdə, Müqəddəs Şuşa şəhərinin işğalının beş illiyində yazmışdım bu şeiri. Biz heç zaman Qarabağa - Şuşaya qayıdacağımıza ümidimizi, inamımızı itirməmişdik! O günü həmişə səbirlə gözləmişdik!

Darıxma, Şuşam, darıxma deyirdim. Bizim üçün 30 il bir igidin ömrüdü, böyük rəqəmdir. Amma zaman üçün bu bir andır, bir nəfəs çəkimidir. Bununla belə, çox şükür ki, bizim nəsil yaşadı, bu qələbəni qazandı! Düşünürəm ki, ömrü vəfa etməyənlərin ruhu da bizimlə bərabər sevinir!

## DARIXMA, ŞUŞAM

Darıxma, gələcək büsatın sənin,
O Cıdır düzündə el şənlənəcək!
Düşmənə od qoyan Ordumuz bizim,
Hicranı qovacaq son mənzilətək!
Küləklər dağlara sığal çəkəcək,
Çiçəklər düzlərə xalı düzəcək,
Hər çiçək üstündə bir al kəpənək,
Qayanın küksündə qartal süzəcək!
Göydən mələklər də yerə enəcək,
Salacaq boynuna incə qolunu!
Qarqarın, Tərtərin selə dönəcək,
Köçhaköç tutacaq ŞUŞA yolunu...
Natəvanın ruhu uçub göylərdə,
Vaqifin ruhuna qovuşacaqdır!
Günü pərən düşən o güneylərdə,
Ellər oba-oba salacaqdı yurd!
İSA bulağı da zümzüməsində,
Xarıbülbülümün gülər gözləri!
Gözəllər axışar... öz cərgəsində
Nənə-nəvələrin gülər üzləri!
İkidlər "CƏNGİ"yə açar qol-qanat,
"CƏNGİ"nin səsinə dünya oyanar!
Beləcə başlayar yenidən həyat,
GÜNƏŞİN rənginə VƏTƏN boyanar!!!

İndi, budur, o Şuşa azaddır! Öz yeni, azad, şən ömrünü yenidən bizimlə yaşamağa başlayıb. Yenidən qurulur, yenidən dirçəlir ŞUŞA, öz doğma övladlarının əliylə, hünəriylə, qəlbiylə!

Bərdə şəhidləri haqqında nəsə yazmaq, onları bir arada, bir kitabda cəm etmək istədim. Onların hər birisinin doğuluğu, böyüdüyü ocağı, yurdu, yuvanı görmək istədim, hərəsi haqqında bir oçerk yazmaq istədim. Amma vaxt, imkan darlığından, həm də bu pandemiya şəraitində mən bunları həyata keçirə bilmədim. Necə deyərlər, iki daşın arasında belə bir kitab hazırlaya bildim. İstədiklərim tam olmasa da deyilən, yazılan söz yadigardı, düşündüm. Bu, son deyil. Yəqin bilirəm ki, bu şəhidlərin hər biri haqqında hələ çox yazılacaq, filimlər çəkiləcək, heykəllər, büstlər qoyulacaq! Gələcək nəsillər daha böyük işlər görəcək... Mənsə bunu bacardım... Yəqin ki yenə nəsə hazırlamağa, bu adları əbədiləşdirib gələcək nəsillərə çatdırmağa çalışacağam...

Kimsə yaddan çıxıbsa, ya nəsə düz yazılmayıbsa oxucular məni bağışlasın....Təkrar nəşrlərdə bunlar nəzərə alınacaq...

Kitabın hazırlanmasında, şəhidlərin haqqında məlumatların toplanmasında mənə yardımçı olan, kömək edən şəxslərə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm! Yaxşılıqdan, dostluqdan uzaq düşməyəsiniz! Şəhidlərə-şahidlərə laqeyd

olanlar bizdən deyil.

Bir arzum da var. Bərdə şəhidlərinin döyüş yolunu izləyərkən məlum oldu ki, bu igidlərin əksəriyyəti Suqovuşanın azadlığı üçün həlak olublar. Gələcəkdə Suqovuşanın ətrafı bərpa olunarkən Bərdə şəhidlərinə bu yerdə xatirə-abidə kompleksi ucaltmaq çox yaxşı olardı.

Düşünməyə dəyər!

# UNUDULMAZ ŞƏHİDLƏRİMİZ...



**Abışov Asif Əlövsət oğlu**

Şəhid Asif Abışov 1992-ci il mayın 16-da Lək kəndində anadan olub. Lək kənd orta məktəbini bitirib. Vətənə olan hərbi xidmətini ödəmək üçün burdan yola düşüb.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Asif Abışov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

O, noyabrın 2-də Xocavənd döyüşləri zamanı qəhrəmancasına şəhid olub. Bərdə rayonunun Lək kəndində doğma torpağa tapşırılıb. Subay idi. Allah rəhmət eləsin!

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrun-

da döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Asif Abışov ölümündən sonra "Vətən uğrunda" medalı ilə, həmçinin, - Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında igidlik, şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Asif Abışov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə də təltif edilib.





**Allahverənov Məhəmməd Zöhrab oğlu**

Şəhid Allahverənov Məhəmməd Zöhrab oğlu 1995-ci ildə Bərdə rayonunun Çəmənli kəndində anadan olmuşdur. Uşaq yaşlarından əmisi İbrahim Allahverənovun hərbi geyimi həmişə onun xoşuna gələrdi. Məhəmmədin adını da əmisi İbrahim qoymuşdu. İbrahimlə Zöhrabın ataları Məhəmməd kişi vaxtı ilə Dərələyəz mahalından Kəlbəcər rayonunun Milli kəndinə gəlmiş, orada məskunlaşmışdı. Sonralar onlar Bərdə rayonunun Çəmənli kəndinə köçmüş və İbrahim Allahverənov da burada birinci sinfə getmişdir.

İbrahim Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirəndən sonra yalnız hərbi işlərdə işləyib. Müxtəlif hərbi vəzifələrdə çalışan İbrahim polkovnik-leytenant rütbəsinə qədər yüksəlmişdir. Moskvada və Qazaxıstanda, daha sonra Azərbaycanda hərbi vəzifələrdə fəaliyyət göstərmişdi. 1990-cı illərdə Qarabağ Regional Mülki Müdafiə idarəsinin rəisi işlədiyi

dövrdə Qarabağda ermənilərin separatçı hərakatının başlanması bütün azərbaycanlılar kimi həmin idarənin əməkdaşlarının da işlərində xüsusi çətinliklər yaratdı. Bütün çətinliklərə baxmayaraq Regional idarənin əməkdaşları polkovnik-leytenant İbrahim Allahverənovun rəhbərliyi altında üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirdilər. 1993-cü ilin aprelində Kəlbəcər rayonu Ermənistan silahlı qüvvələrinin təcavüzünə məruz qaldığı zaman Kəlbəcər rayonunundan olan qohum-əqrəbaların əksəriyyəti İbrahim Allahverənovun yaşadığı Çəmənli kəndinə pənah gətirdi. 1995-ci ildə qardaşı Zöhrabın oğlu olanda İbrahim ona atası Məhəmmədin adını verdi. Məhəmməd böyüdükcə ata-anası ilə yanaşı əmisi İbrahimi də özünə ata hesab edir, onun yanından əl çəkmirdi. Həmişə onun hərbi geyimlərini geyinər, saatlarla özünü herbiçi kimi hiss edərdi.

Ötən ilin sentyabr ayında Azərbaycan Ordusunun erməni işğalçılarına qarşı əks-hücumu başlananda Məhəmməd 3 aya yaxın idi ki, müddətdən artıq hərbi qulluqçu kimi çalışırdı. O, hərbi əməliyyatların başlanmasını uzun illərdən bəri səbirsizliklə gözləyirdi. Odur ki, könüllü olaraq cəbhə bölgəsinə göndərilməsini xahiş etdi. Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmanlıqlar göstərdi. Atası Zöhrabla telefon danışıqları zamanı ona deyirdi ki, sizin 90-cı illərdə edə bilmədiklərinizi indi biz, sizin övladlarınız fədakarlıqla edirik, erməniləri torpaqlarımızdan qovuruq, onlar hər şeyi qoyub qaçırlar. Atası Zöhrab keçdiyi döyüş yollarından Məhəmmədə o qədər danışmışdı ki... Axırıncı dəfə atasına zəng edəndə Zöhrab ona ehtiyatlı olmağı

məsləhət görmüşdü. Bir dəfə qıçından güllə yarası alan Məhəmməd sanitar hissədə yarasını sarıtdırandan sonra həkimlərin təkidinə baxmayaraq, yenidən döyüş bölgəsinə qayıtmış, telefon danışıqları zamanı bu barədə atasına bir kəlmə də deməmişdi. Son danışıqları oktyabr ayının 6-da olmuşdu. Ayın 7-də isə ağır döyüşlərdə, düşmənlə üzbəüz səngərdə şəhid oldu. Şəhidlik zirvəsinə yüksələndən on bir gün sonra onun cəsədini döyüş zonasından çıxara bildilər. O, son gülləsinə qədər vuruşmuş və neçə-neçə erməninin məhv eləmişdi. Onun meyidini bizim hərbiçilər götürəndə Məhəmmədin meyidinin yanında 11 erməni cəsədi də var imiş...

İndi Məhəmməd doğulub böyüdüyü Çəmənli kənd qəbristanlığında əbədi uyuyur. Yeri behişt olsun, qəbri nurla dolsun!!! Ruhu isə yəqin ki, azad etdiyi Qarabağ göylərində dolaşır!

Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən Allahverənov Məhəmməd Zöhrab oğlu ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunması görə" medalları ilə təltif edilib.





**Baxşəliyev Nicat Ziyafət oğlu**

Baxşalıyev Nicat 1993-cü il iyunun 16-da Bərdə şəhərində anadan olmuşdu. Bərdə şəhər 7 saylı tam orta məktəbi bitirmişdi.

Müddətli Hərbi xidmətini Fizulinin kəndlərində - təmas xəttində keçirmişdi. Minamiyotçu idi.

II Qarabağ müharibəsi başlayanda Ordumuzun tərkibində Nicat da könüllü olaraq Vətənin müdafiyəsinə qalxdı. Fizuli–Ağdərə istiqamətində döyüşlərdə igidliklər göstərmişdi. Oktyabrın 18-də bu döyüşlərin birində həlak olmuşdu.

Məzarı Bərdənin Alaçadırlı qəbristanlığındadı. Subay idi.

Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.





**Behbudlu Behbud Rübail oğlu**

Şəhid Behbudlu Behbud 2001-ci il avqustun 9-da Bərdə rayonundakı Mustafağalı kəndində anadan olub. Orta məktəbi burda bitirib və hərbi xidmətə burdan yola düşüb. O, müddətli hərbi xidmətdə olarkən II Qarabağ müharibəsi başlayıb.

Vətən müharibəsində Behbud da Azərbaycan ordusunun tərkibində bu elin oğlu kimi ermənilərin dərsini vermək, bu torpaqlardan qovmaq üçün ön cəbhədə idi. Və o, istəyinə, arzusuna çatdı! Az zaman içində döyüşüb, sonra da qəhrəmancasına həlak oldu.

Behbudlu Behbud 2020–ci il oktyabrın 1-də Murov yüksəklikləri uğrunda gedən döyüşdə şəhidlik zirvəsinə ucalıb. Doğulduğu kənd qəbristanlığında dəfn olunub. Yeri behişt olsun!





**Calalzadə Calal Qaryağdı oğlu**

Şəhid Calal Calalzadə 1993-cü il oktyabrın 17-də Mustafağalı kəndində anadan olub. Burda böyüyüb, burda orta təhsilini başa vurub.

C.Calalzadə Azərbaycan Ordusunun siravi əsgəri olaraq 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində fəal iştirak edib. Az zaman içində o, bir igid döyüşçü, vətənpərvər, xalqını, yurdunu sevən gənc kimi tanınıb. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə isə xüsusi olaraq fərqlənib.

Calal Calalzadə oktyabrın 3-də Suqovuşan istiqamətində gedən döyüşlər zamanı qəhrəmanlıqla həlak olub. Bərdə rayonunun Mustafaağalı kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Calal Calalzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.






**Cəfərli Asim Çingiz oğlu**

Cəfərli Asim 2001-ci il sentyabrın 4-də Bərdə rayonunun Piyadalar kəndində anadan olub. Ailənin tək övladı, yeganə oğlu idi... Burda orta məktəbi bitirdi. Bütün gənclər kimi onun da böyük arzuları, amalları, gələcəyə xoş ümidləri vardı. Bir nəslin davamçısı kimi bu ailənin sabahı onun əlində idi. Lakin Asim bir evin yox, bir elin, bi obanın oğlu, övladı oldu...

Vətən Müharibəsi başlayanda Asimin 19 yaşı təzə tamam olmuşdu. Vətənin çağrışına o da qoşuldu. Fizuli istiqamətində gedən döyüşlərdə fəal iştirak etdi... Xocavəndə qədər döyüş yolu keçdi... və elə 2020-ci ilin oktyabrın 25-də Asim Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid oldu.

O, Vətən müharibəsində göstərdiyi igidlik və qəhrəmanlıqlara görə Respublika Prezidentinin müvafiq sərəncamı ilə “Vətən uğrunda”, “Döyüşdə fərqlənməyə görə” və “Füzulinin

azad olunmasına görə" medalları ilə təltif edildi...

Bu günlərdə şəhid Cəfərli Asim Çingiz oğlunun doğum günü onu sevənlərin iştirakı ilə təntənəli şəkildə qeyd olundu. Axı onun 20 yaşı tamam olurdu!!! Yəqin ki, o özü ad gününün doğmaları, vətənsevərləri tərəfindən necə keçirilməsinə göylərdən baxırdı!!! Qoy həmişə ruhu şad olsun! Şəhidlər ölmür ki...





**Cəfərov Oruc Vaqif oğlu**

Şəhid Oruc Cəfərov 1993-cü il fevralın 23-də Xanərəb kəndində anadan olub. Burda orta təhsilini alıb. Burdan Müddətli həqiqi xidmətə yola düşüb. Xidmətini başa vursa da, hərbi işdən, ordudan ayrılmayıb.

Azərbaycan Ordusunun əsgəri kimi O. Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən - Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak edib. O, oktyabrın 8-də Ağdərə istiqamətindəki döyüşlərin birində qəhrəmancasına şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında fəal iştirakına və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham

Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Oruc Cəfərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.





**Cəfərov Təbriz İlqar oğlu**

Şəhid Təbriz Cəfərov 14 iyul 1995-ci ildə Bərdə şəhərində dünyaya göz açmışdır. Onun valideynləri əslən Ağdərə rayonunun Kərəmli kəndindən idilər. 1992-ci il hadisələrində - rayonun işğalı nəticəsində qaşqın düşmüş, Bərdəyə gələrək burda məsgunlaşmışdılar.

Təbriz Orta təhsilini Bərdə şəhərində yerləşən 94 saylı Kəlbəcər köçgün məktəbində almışdı. 2014-2016-cı illərdə o, müddətli həqiqi hərbi xidmətini də başa vurmuşdu. Lakin Hərbi işə olan marağı və ata-baba torpağı olan Ağdərənin hələ də düşmən tapdağında qalması onu hərbi işə ömürlük bağladı. Təbriz Cəfərov 2020-ci ilin 19 avqust tarixindən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi hərbi texnikanın sirlərinə yiyələnirdi.

Azərbaycan Ordusunun tərkibində Təbriz Cəfərov

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdi və bu istiqamətdə döyüşlərin birində itgin düşmüşdü. Uzun müddət axtarışdan sonra tapılan nəşi 6 aprel 2021-ci ildə Bərdə Şəhidlər xiyabanında dəfn edilmişdi.





**Cəfərzadə Elvin Ramiz oğlu**

Şəhid Elvin Cəfərzadə 1996-cı il noyabrın 8-də Bərdə rayon Köbərkənd kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə Mirzəxan kənd şəhid Etibar Əhmədov adına tam orta məktəbi bitirmişdir.

2014-2016-cı illərdə Şəmkir rayonunda N saylı hərbi hissədə hərbi xidmətə başlamışdır. Hərbi xidməti bitirdikdən sonra Bərdədə Hərbi Polisdə gizir vəzifəsində çalışırdı.

2020-ci il 27 Sentyabrda başlayan Vətən müharibəsində, II Qarabağ döyüşlərində Elvin Fizuli, Suqovuşan, Qubadlı rayonları ərazisində döyüşlərdə iştirak etmişdir. Bir sıra şəhid və yaralıların təxliyə edilməsində yaxından iştirak etmişdir. Mərd, qorxmaz gizir Cəfərzadə Elvin 2021-ci il yanvar ayının 24-də səhər saat 9 radələrində Ağdam rayonunda xidməti vəzifəsini yerinə yetirərkən ürək tutmasından dünyasını dəyişmişdir.



**Ədilov Səid Həsən oğlu**

Şəhid Səid Ədilov 1994-cü ildə Rusiya Federasiyasının Rastov Vilayətinin Azov şəhərində anadan olmuşdur. 2003-cü ildə ailəsi ilə birlikdə Azərbaycana qayıtmış, Bərdə rayonunn Cəyirli kəndində yaşamağa başlamışdılar. Səid təhsilini Bərdə rayon, Nizami Gəncəvi adina 2 saylı tam orta məktəbdə davam etdirmişdir. 2012-ci ildə həmin məktəbin məzunu olmuş və hərbi xidmətə yola düşmüşdü.

Vətənpərvər gəncimiz hər zaman şəhidlərimizin qisasını almaq arzusu ilə yaşamışdır. Bu məqsədlə Vətən Müharibəsi başlayan elə ilk gündən cəbhəyə yollanan Səid döyüşlərdə fəal iştirak etmişdir.

Səid Ədilov Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Bərdə Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi.

Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.




**Əhmədov Cavanşir Elxan oğlu**

Şəhid Cavanşir Əhmədov 2001-ci il may ayının 6-sı Xırdalan şəhərində anadan olmuşdur. Onun ailəsi Bərdənin Alpoud kəndindən idi. İşləmək üçün Xırdalan şəhərinə gəlmişdilər. Kirayədə yaşayırdılar. Cavanşir də burda, orta təhsilini 2007-2018-ci illərdə Xırdalanda 1 sayli tam orta məkdəbində almışdı. Hələ uşaq yaşlarından idmana böyük maraq göstərirdi, ağır atletika ilə məşqul idi və bir neçə uğura da imza atmışdır.

2018-ci ildə Cavanşir orta məktəbi bitirdikdən sonra, Bakı şəhərində yerləşən "Odlar Yurdu" Kollecinə daxil olur. Lakin 8 iyul 2019-cu ildə təhsilini donduraraq, müddətli hərbi xidmətə yola düşmüşdü. Xidmətin bitməsinə 3 ay qalmış, 27 sentyabr 2020-ci ildə İkinci Qarabağ müharibəsi başlamışdır və Cavanşir Əhmədov müxtəlif istiqamətlərdə döyüşlərə qatılmışdır.

Qubadlı, Zəngilan və Laçın rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 2020-ci ilin 4 noyabr tarixində Laçın rayonunun Səfiyan kəndində vuruşmuşdur, hətta qolundan yaralansa belə, yarasını sarıyıb, yenidən döyüşə davam etmişdir. Yaralı olduğu halda, döyüş yoldaşına kömək etmək istəyərkən, aldığı düşmən gülləsindən şəhid olmuşdur. Cavanşir Əhmədovun nəşi 26 noyabr 2020-ci il tarixində ailəsinə təhvil verilmişdir və böyük izdihamla Bərdə rayonunun Alpoud kəndində dəfn edilmişdir. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Cavanşir Əhmədov ölümündən sonra "Vətən uğrunda" və 29. 12. 2020–ci il tarixli sərəncamı ilə “Laçının azad edilməsinə görə” medalları ilə təltif edilmişdi.





**Əliyev Orxan Məhəmməd oğlu**

1989-cu il sentyabrın 19-da Bərdə rayonunun Mollaəhmədli kəndində anadan olub. Burda orta təhsilini alıb. Burdan Müddətli həqiqi xidmətə yola düşüb və sonra ömürlük həyatını hərbi xidmətə həsr edib.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Orxan Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Orxan Əliyev sentyabrın 30-da Suqovuşan döyüşləri zamanı da şəhid olub. Doğulduğu kənddə dəfn olunub. Ailəli idi. Üç uşağı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Orxan Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.





**Əsgərov Asəf İlqar oğlu**

Şəhid Asəf Əsgərov 1989-cu il martın 12-də Mustafağalı kəndində anadan olub. Burda orta təhsilini başa vurmuşdu. 2008-ci ilin aprelində urdan Müddətli hərbi xidmətdə yola düşmüşdü. Əsgərliyini bitirsə də hərbi işə olan marağı onu daimilik Azərbaycan ordusuna bağladı. Orduda gizir kimi xidmət göstərirdi.

Asəf Əsgərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə igidliklə vuruşub, şücaət göstərmişdi və oktyabrın 12-də Suqovuşan döyüşləri zamanı da şəhid olmuşdu.

A. Əsgərovun məzarı Mustafaağalı kəndindədir. Ailəli idi, İki oğlu yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə - Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən Asəf Əsgərov "Qarabağ" ordeni ilə, 15.12.2020-ci il sərəncamı ilə “Vətən uğrunda”, 24.12.2020-ci il sərəncamı ilə də “Suqovuşanın azad edilməsinə görə” medalları ilə təltif edilmişdi.





**Əlizadə Pərvin Vüqar oğlu**

Şəhid Leytenant Əlizadə Pərvin 11 sentyabr 1993-cü ildə Bərdə rayonunun Birinci Qazaxlar kəndində anadan olub. Əslən Laçınının Minkənd kəndindən olublar. O, Birinci Qazaxlar kənd orta məktəbində tam orta təhsili almışdı.

2015-ci ildə Pərvin Azərbaycan dövlət Bədən Tərbiyəsi və İdaman Akademiyasını bitirdi. Laçın kiqboksinq klubunun üzvü idi. Tələbəlik illərində Tiblisidə Zaqafqaziya çempionu və dəfələrlə respublika birinciliyinin qalibi və mükafatçısı olmuşdu. Lakin Hərbi xidmətini Fövqəlada Hallar Nazirliyində kecən P. Əlizadənin vətənə olan sevgisi onu Azərbaycan Ordusunun sıralarına gətirib çıxartdı. Leytinant rütbəsi almışdı. Dədə-baba yurdu hələ düşmən tapdağında idi. İndi düşmənin dərsini verməyin vaxtı çatmışdı.

Ordumuzun sentyabrın 27-də işğalçı Ermənistan ordusuna qarşı başladığı əks-hücum əməliyyatları zamanı, Pərvin bir leytinant kimi döyüş yoldaşlarının dediyinə görə, o, düşmənə əsl cəhənnəmi yaşadıb! Tərtərin Suqovuşan və Ağdərənin azad olunmasnda igidlik göstərib. Oktyabrın 20-də Ağdərə istiqamətindəki Tülkü dərəsi deyilən yerdə düşmənin açdığı snayper atəşi nəticəsində qəhrəmancasına şəhid olub.

Pərvin Əlizadə Bərdə rayonunun Birinci Qazaxlar kəndində torpağa tapşırılıb.

Ölümündən sonra P. Əlizadə “Qarabağ” ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.





**Əlizadə Nofəl Qənbər oğlu**

Şəhid Əlizadə Nofəl Qənbər oğlu 1992-ci il yanvarın 13-də Bərdə rayon Saatlı kəndində doğulub. Burda orta təhsilini başa vurduqdan sonra Müddətli hərbi xidmətə yola düşüb.

Nofəl həyatını hərbi işə həsr etmişdi. O, 6 il Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrində xidmət göstərmişdi. 27 Sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində qəhrəmanlıqla iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə igidliklə vuruşaraq 28 Sentyabr 2020-ci il tarixində şəhid olmuşdur.

N.Əlizadə doğulduğu kənddə torpağa tapşırılıb. Subay idi.

Ölümündən sonra o, "Vətən uğrunda" və "Suqovuşanın azad edilməsi uğrunda" medalları ilə təltif edilmişdir.





**Hüseynzadə Elməddin Fərman oğlu**

Elməddin 1998-ci ilin martın 24-də Sərkarlar kəndində doğulub və bu kənddə böyümüşdü. Sonra ailə işləmək üçün Bərdə şəhərinə köçür. Burda kirayədə yaşayırlar. Elməddin Bərdədəki 1 saylı tam orta məktəbdə təhsil alır. O, həmçinin, 105 saylı peşə məktəbində sürücülük, çilingər peşələrinə də yiyələnir.

Elməddin Müddətli hərbi xidmətini də başa vurmuşdu. Lakin sonradan daimilik hərbi işlə məşğul olmaq qərarına gəldi və N saylı hərbi hissədə hərbi təlimlərə başladı. II Qarabağ müharibəsi başlayanda o, 41 gün idi ki, hərbi xidmətdə idi.

Vətən müharibəsi zamanı Elməddin də Vətənin igid, qorxmaz, vətənpərvər oğlu kimi ön cəbhəyə yollandı. O, 2020-ci il sentyabr ayının 29-da Talış-Suqovuşan istiqamətində döyüşlərdə xüsusi fəallıq göstərmiş və elə burada da qəhrəmancasına şəhid olmuşdur.

Subay idi. Bir evin, bir ailənin, bir nəslin tək oğlu idi... Nə atası var idi, nə bacısı, nə də qardaşı... Amma indi Elməddinin onu daimi sevəcək, əbədi yaşadacaq bir qədirbilən xalqı, doğma eli- milləti var!!!

E.Hüseynzadə ölümündən sonra "Suqovuşanın Azad olunmasına görə" və "Vətən Uğrunda" medalları ilə təltif edilmişdir.





**Hümbətzadə Şahmuraz Əyyub oğlu**

Şəhid Şahmuraz 1998-ci il sentyabrın 8-də Bərdə rayonunun Cəyirli kəndində bu dünyaya göz açıb. Burda böyüyüb, orta məktəbi qurtarıb. Sonra Vətənə olan oğul borcunu yerinə yetirmək üçün hərbi xidmətə yola düşüb.

Azərbaycan Ordusunun əsgəri olan Şahmuraz Hümbətzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Ağdərə şəhəri istiqamətində gedən döyüşlərə qoşulub. İşğalçı düşmənə qarşı qəhrəmancasına döyüşüb!

Şahmuraz Hümbətzadə oktyabrın 23-də elə Ağdərə döyüşləri zamanı şəhid olub. Bərdədə dəfn olunub. Yeri behişt olsun!

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrun-

da döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Şahmuraz Hümbətzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.





**Hümbətov Səfayət Ələddin oğlu**

Şəhid Hümbətov Səfayət Ələddin oğlu 17 fevral 1987-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. Burda orta təhsilini almışdı. Müddətli hərbi xidmətini başa vurmuşdu.

II Qarabağ müharibəsi başlayanda Səfayət Goranboyun Tapqaraqoyunlu kəndi istiqamətində döyüşlərdə iştirak etmişdi. 28 sentyabr 2020-ci ildə o, bu döyüşlərin birində həlak olmuşdu.

29 sentyabr 2020-ci ildə doğulduğu Yeni Daşkənd kəndində dəfn olunmuşdur. Evli idi. İki övladı yadigar qalıb.

Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.






**Hüseynov Adil Namiq oğlu**

Hüseynov Adil 1995-ci il mayın 30-da Bərdə rayonunun Körpüsındıran kəndində dünyaya göz açmışdı. Orta məktəbi də bu kənddə bitirmişdir. 2013-2015-ci illərdə Vətənə olan oğul borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə çağrılmışdı.

Vətən müharibəsi başlayanda Vətənin müdafiyəsinə könüllü yollanan Hüseynov Adil Ağdərə-Suqovuşan istiqamətində döyüşlərdə fəal iştirak etmişdir.

17 Oktyabr 2020-ci il tarixində Ağdərə istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə yüksəlmişdi.

İndi şəhidimiz doğulub boya-başa çatdığı Körpüsındıran kənd qəbristanlığında əbədi uyuyur! Yeri behişt olsun!!!

Hüseynov Adil ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunmuşdu.



**Hüseynov Emin Zakir oğlu**

Şəhid Emin Hüseynov 1992-ci il noyabrın 22-də Bərdə rayonunun Mollaisalar kəndində dünyaya gəlib. Burda böyüyüb, orta məktəbi bitirib. 2017-ci ildə hərbi xidmətdə olub. Xidməti borcunu yerinə yetirib.

II Qarabağ müharibəsində o da döyüşlərə qatılıb və Goranboy rayonunda döyüşüb. Kəşfiyyat bölüyü Goranboy rayonu, Gülüstan kəndi istiqamətində hərbi əməliyyatlar zamanı düşmən mərmisinin partlaması nəticəsində 2020-ci il sentyabrın 29-da həlak olmuşdur.

Doğulduğu Mollaisalar kəndində dəfn edilib. Yeri behşt olsun!

Respublika Prezidentinin sərəncamları ilə ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" və ”Cəsur döyüşçü” medallarıyla təltif edilib.



**Həsənov Təbriz Rəşid oğlu**

Şəhid Həsənov Təbriz 25 avqust 1994-cü ildə Bərdə rayonunun Qaradəmirçi kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə Bərdə rayon, Ə. Dadaşov adına Xanağalı kənd tam orta məktəbini bitirmişdi. Müddətli hərbi xidmətini başa vurandan sonra o, həyatını hərbi işə həsr etdi.

Tank tağımının tuşlayıcı-operator vəzifəsini icra edən Təbriz Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə fəal iştirak etmişdir. 02 oktyabr 2020-ci il tarixdə Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Doğulduğu Qaradəmirçi kəndində torpağa tapşırılıb. Ailəli idi. 2 övladı yadigar qalıb.

Ölümündən sonra H. Təbriz "Vətən uğrunda" medalı ilə təltif edilmişdi.





**Həsənov Azər Aydın oğlu**

Şəhid Həsənov Azər 1982-ci il mayın 6-da Qaradəmirçi kəndində anadan olmuşdu. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə çağrılmışdı. O, hərbi xidmətini başa vurandan sonra da hərbi hissədən ayrılmamışdı. 2014-cü ildən müddətdən artıq hərbi xidmətdə idi. Tankçı ixtisasına yiyələnmişdi. Çavuş idi.

II Qarabağ müharibəsi başlayanda Azər də bir tankçı kimi Azərbaycan ordusunun tərkibində ön cəbhəyə getdi. Ağdərə rayonu istiqamətində döyüşlərdə fəallıq göstərdi. 2020-ci il oktyabrın 13-də elə burda da həlak oldu. Şəhidlik zirvəsinə yüksəldi.

A. Həsənov Doğulduğu kənddə torpağa tapşırılıb. Ailəli idi. 3 uşağı yadigar qalıb.

Azər Həsənov Respublika Prezidentinin sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir!



**Xıdırov Ərəstun Arif oğlu**

Şəhid Ərəstun Bərdə şəhərində 1998-ci il martın 18-də anadan olub. Bərdədəki 6 saylı tam orta məktəbi bitirib. Müddətli hərbi xidmətini başa vurandan sonra hərbi işə olan marağı, həvəsi yenidən onu hərbi xidmətə qaytarıb. N saylı hərbi hissənin çavuşu idi.

27 sentyabr 2020-ci ildə II Qarabağ müharibəsi başlayanda Ərəstun da hərbi hissənin tərkibində ön cəbhədə döyüşürdü. Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmanlıqlar göstərmişdi. Oktyabrın 15-də elə Suqovuşan istiqamətində olan döyüşlərin birində də həlak oldu.

Ə. Xıdırov Bərdə Şəhidlər Xiyabanında dəfn olunub. Subay idi.

Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.





**İlyasov Bəhrəm Nizam oğlu**

Şəhid Bəhrəm İlyasov 30 noyabr 1998-ci ildə Bərdə rayonu Nəcəfqulubəyli kəndində anadan olmuşdu. Burda orta təhsilini başa vurmuşdu. Orta təhsilini bitirdikdən sonra Vətənə olan hərbi borcunu da yerinə yetirmişdir.

2020-ci ilin Tovuz hadisələrində Bəhrəm İlyasov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon şöbəsinə müraciət etmiş və könüllü olaraq döyüşən orduya qoşulmuşdur.

Azərbaycan Ordusunun yurdsevər, Vətənsevər əsgəri olan Bəhrəm İlyasov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində fəal iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur.

Bəhrəm İlyasov Suqovuşan istiqamətində gedən döyüşlərdə də şəhid olmuşdur. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında igidlik göstərən və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirən B. İlyasov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamları ilə "Suqovuşanın azad edilməsinə görə", "Ağdamın azad edilməsinə görə" medalları ilə təltif edilmişdi.





**İsgəndərov Vüsal Asdan oğlu**

Şəhid İsgəndərov Vüsal Aslan oğlu 1998-ci il sentyabrın 10-da Bərdənin Nifçi kəndində anadan olub. Burda orta təhsilini almışdı. Müddətli hərbi xidmətini də yerinə yetirmişdi. Lakin sonra həyatını hərbi işə bağladı. N saylı hərbi hissənin çavuşu idi.

II Qarabağ müharibəsi başlayanda Vüsal da ön cəbhədə idi. O, Goranboyun müdafiyəsində igidlik göstərmişdi. Vüsal 2020-ci il sentyabrın 30-da Goranboyun Tapqaraqoyunlu kəndi istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Doğulduğu kənddə torpağa tapşırılmışdı. Subay idi.

Ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilib.





**İsmayılzadə Şövqü Raqub oğlu**

Şəhid Şövqü İsmayılzadə 23 fevral 1996-cı ildə Bərdə rayonu Bəcirəvan kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə I Qarabağ şəhidi Bəxtiyar Əhmədoğlu adına tam orta məktəbdə təhsil almışdı.

Uşaq yaşlarından musiqiyə böyük marağı olan Şövqi, həm də Bərdə şəhər 2 saylı musiqi məktəbinin tar sinfini də bitirmişdi.

Həqiqi hərbi xidmətini 2014-cü ildə Naxçıvan Muxtar Respublikası, DSX-da keçmişdir. 2020-ci ilin aprel ayından isə Şövqi müddətdən artıq hərbi xidmətdə olmuşdu. O, Hərbi hissənin çavuşu idi.

Vətən Müharibəsi zamanı Şövqi də ön cəbhədə işğalçı erməni ordusuna qarşı döyüşməkdə idi. Ağdərənin azad edilməsi uğrunda döyüşlərdə o, çox fəallıq göstərmişdi. 2020-ci il

oktyabrın 7-də Şövqi elə Ağdərənin azadlığı üçün qəhrəmancasına şəhid olmuşdur.

Ş.İsmayılzadənin məzarı doğulduğu kənddə yerləşir. Evli idi. Bir övladı yadigar qalıb.

Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.





**İsayev Toğrul Natiq oğlu**

Şəhid Toğrul İsayev 1996-cı il dekabrın 25-də Bərdədə anadan olub. Burda orta təhsilini bitirdikdən sonra 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçib. Xidməti müddəti başa çatsa da hərbi hissədən ayrılmayıb. Çavuş rütbəsi ilə hərbi xidmətini davam etdirib.

Azərbaycan Ordusunun tərkibində Toğrul İsayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqları ilə yadda qalıb.

Toğrul İsayev sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub. Bakıda II Şəhidlər Xiyabanında dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Toğrul İsayev "Vətən uğrunda", 25.12.2020-ci il tarixli sərəncamı ilə də "Fizulinin azadlığına görə" medalları ilə təltif olunub.





**Quliyev Aqil Mətləb oğlu**

Şəhid Aqil Quliyev 2000-ci il dekabrın 3-də Bərdə şəhərində anadan olmuşdur. Orta təhsilini Bərdədəki Akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseydə almışdır.

Hərbi xidmətini başa vursa da Aqil hərbi işindən ayrılmamışdı. 2020-ci ilin iyun ayından müddətdən artıq hərbi xidmət keçən A. Quliyev  Vətən Müharibəsi zamanı ön cəbhəyə getmiş, döyüşlərdə fəal iştirak etmişdir. O, Fizulidən Şuşaya qədər böyük döyüş yolu keçmişdi.

Qələbəyə, Böyük Zəfərə iki gün qalmış Aqil 2020-ci il noyabrın 8-də Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, Bərdə şəhidlər xiyabanında dəfn edilmişdir.

Vətənini, xalqını, yurdunu sevən Aqilin Fizuli, Cəbrayıl, Qubadlı, Zəngilan istiqamətlərində olan döyüşləri heç zaman unudulmayacaq!

Respublika Prezidentinin sərəncamı ilə A. Quliyev ölümündən sonra "Vətən Uğrunda" medalı ilə təltif edilmişdir. Allah rəhmət eləsin!





**Quliyev Mehman Telman oğlu**

Şəhid Mehman Quliyev 1992-ci il martın 29-da Bərdənin Əyricə kəndində doğulub, böyüyüb. Burda Əyricə kənd orta məktəbini bitirmişdi.

Müddətli hərbi xidmətini başa vursa da hərbi işə marağı onu yenidən Azərbaycan Ordusuna gətirib çıxartdı. Çavuş idi. Hərbi hissədə yaxşı kəşviyyatçı kimi də tanınmışdı. II Qarabağ müharibəsi başlayanda Mehman da ön cəbhədə düşmənə qarşı döyüşlərə atıldı. Ağır döyüş yolu keçdi və bu döyüşlərin birində 2020-ci il oktyabrın 7-də həlak oldu.

Mehmanın məzarı doğma kəndində yerləşir. Ailəli idi. Bir qızı yadigar qalıb.

Ölümündən sonra “Cəsur döyüşçü”, “Vətən uğrunda”, “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif edilmişdi. Allah rəhmət eləsin.



**Qarayev Elyaz Vəli oğlu**

Şəhid Elyaz Qarayev 20 oktyabr 1998-ci ildə Bərdə rayonu Dəymədağıl kəndində anadan olmuşdur. Elyaz orta təhsilini şəhid F. Əhmədov adına Dəymədağıl kənd tam orta məktəbində almış və oxuduğu müddətdə öz davranışı, təhsili və tərbiyəsi ilə yaşıdlarından xeyli fərqlənmişdi. O, 2016-2018-ci illərdə hərbi xidmətdə baş rabitəçi kimi işləmişdir. Atasız böyüyən Elyaz evin tək oğlu, bir bacının tək qardaşı idi. Amma o Vətənin dar günündə kənarda qala bilmədi. 30 ildi doğma torpaqlarımızda at oynadan ermənilərdən qisasını almaq istədi və aldı!

2020-ci ilin 27 sentyabr ayında başlanan "Vətən müharibəsi" adlanan II Qarabağ müharibəsinə, 22 yaşlı Elyaz da könüllü olaraq bir döyüşçü kimi qoşuldu, 30 gün müddətində müxtəlif istiqamətlərdə gedən döyüşlərdə fəal iştirak etdi. Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının və yüksəkliklərinin

azad edilәsindә xüsusi fәallıq, igidlik göstәrdi. Lakin 28 oktyabr 2020-ci il tarixdә Şuşa istiqamәtindә gedәn döyüşlәrdә qәhrәmancasına şәhid oldu. İndi doğulduğu Dәymәdağıl kәnd qәbristanlığında әbәdi uyuyur.

Elyaz, Azәrbaycan Respublikası Prezidentinin sәrәncamı ilә ölümündәn sonra "Cәsur döyüşçü" vә "Vәtәn uğrunda" medalları ilә tәltif olunmuşdur.





**Qurbanov Rəcəb Elşən oğlu**

Şəhid Rəcəb Qurbanov 2001-ci il yanvarın 1-də Bərdə rayonun Kələntərli kəndində anadan olmuşdu. Burda orta təhsilini başa vurmuşdu.. Sonra 2019-cu ildən Vətənə olan müddətli hərbi xidmət borcunu da yerinə yetirmişdi. Daha sonra O, hərbi işdən ayrılmamış, Xüsusi Təyinatlı Qüvvələrin tərkibində müddətdən artıq qulluq edərək kəşfiyyatçı kimi yetişib, formalaşmışdı.

Rəcəb elə bir XTQ kəşfiyyatçı kimi də Murovun düşmənlərdən azad edilməsində xüsusi şücaət göstərmiş, həmçinin, Fizuli, Cəbrayıl, Horadiz istiqamətində gedən döyüşlərdə igidliklə iştirak etmişdi.

2020-ci il noyabrın 6-da Rəcəb Cəbrayıl uğrunda gedən döyüşlərdə qəhrəmancasına ŞƏHİD oldu. O, Doğulduğu Kələntərli kəndində dəfn olunub.

Ölümündən sonra “Vətən uğrunda”, “Kəlbəcərin azad edilməsinə görə” medalları ilə təltif edilib.



**Qənbərov Mehman Nəriman oğlu**

Şəhid polkovnik - leytenant Mehman Qənbərov 1981-ci il mayın 27-də Ağdam rayonunun Maqsudlu kəndində anadan olub. Ağdamın işğalından sonra Bərdə rayonunda məsgunlaşmışdı.

Azərbaycan Ordusunun polkovnik-leytenantı olan Mehman Qənbərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdi.

Mehman Qənbərov sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub və Bərdə Şəhidlər Xiyabanında dəfn edilib.

Ölümündən sonra M. Qənbərov “Qarabağ” ordeni, “Füzulinin azad edilməsinə görə” və “Vətən uğrunda” medalları ilə təltif edilib.

Ailəli idi. İki oğul övladı yadigar qalıb.



**Qəribzadə Fəxri Elmir oğlu**

Şəhid Fəxri Qəribzadə 1993-cü il dekabrın 15-də Güloğlular kəndində dünyaya göz açıb. Burda Orta təhsilini alıb. Burda böyüyüb boya-başa çatıb...

Vətəni azğın, həyasız, hiyləkər ermənilərdən təmizləmək lazım gələndə o da ön cəbhəyə yola düşdü. Müharibədən əvvəl N hərbi hissəsində iki ay idi ki, hərbi təlimlərə başlamışdı. Ömrünü Vətənin müdafiyəsi üçün hərbi xidmətə həsr etmək istəyirdi. Çavuş idi.

II Qarabağ müharibəsində böyük, uzun bir döyüş yolu keçdi... Təssüf ki, Fəxri Qəribzadə Qələbə, Zəfər günü Ağdərə istiqamətində döyüşlərdə həlak oldu. Bu tarixə nəzər salın: - 10.10.2020.

Ölümündən sonra Respublika Prezidentinin sərəncamı ilə "Vətən uğrunda" döyüş medalı ilə təltif edilmişdir.



**Məhərrəmov Əli Kamil oğlu**

Şəhid Əli Məhərrəmov Mirzəalıbəyli kəndində 2001-ci ildə doğulub. Orta təhsilini Mirzəəlibəylidə kənd orta məktəbində başa vurduqdan sonra hərbi xidmətini də yerinə yetirmək üşün N saylı hərbi hissədə təlimlərə başlamışdı. Hərbi xidmətinin başa çatmasına üç gün qalmış II Qarabağ müharibəsi başladı. İşğalçı erməni ordusunu məhv etmək üçün Əligilin hərbi hissəsi də ön cəbhəyə yola düşdü. O, Fizuli –Horadiz istiqamətində gedən ilk döyüşlərdə - sentyabrın 28-də həlak oldu.

Məzarı Mirzəalıbəyli kənd qəbirsanlığındadı. Yeri behişt olsun.

Eyvaz babasının himayəsində böyümüşdü...Subay idi...Gözaltısı vardı yəqin ki...

Ölümündən sonra "Fizulinin alınmasına görə", "Horadizin alınmasına görə" medalları ilə təltif edilmişdi.



**Məmmədzadə Əli Turan oğlu**

Əli Məmmədzadə 2002-ci il fevralın 15-də Mirzəalıbəyli kəndində anadan olub. Mirzəalıbəyli kənd orta məktəbini bitirib. İdmanı çox sevirdi. Bokçu idi. Görkəmi ilə yaşıdlarından xeyli seçilirdi, fərqlənirdi.

II Qarabağ müharibəsi başlayanda Əlinin 19 yaşı vardı. İki ay idi Əsgərliyə gəlmişdi. Hələ hərbi təlimlərə yenicə başlamışdı. Bununla belə onun çevikliyi, mübarizliyi, döyüşkənliyi hər kəsin diqqətini çəkirdi. Odur ki, Əli də döyüşən orduya qoşuldu. Uzun bir döyüş yolu keçdi. Şuşanın müdafiyəsində həlak oldu.

Ə. Məmmədzadə Mirzəalıbəyli kəndində torpağa tapşırılıb. Subay idi. Allah rəhmət eləsin!

Ölümündən sonra "Vətən uğrunda" və "Hərbi xidmətə görə" medalları ilə təltif edilib.



**Musayev Səbuhi Rəfael oğlu**

Şəhid Musayev Səbuhi 1988-ci il iyunun 16-da Bərdə rayonunun Mustafağalı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə çağrılmışdı. Və o, bundan sonra ömrünü hərbi işə həsr etmişdi.

Kiçik çavuş, tankçı Səbuhi Musayev Aprel döyüşlərinin iştirakçısı olmuşdu. O, 2016-cı ilin aprel ayında Azərbaycan-Ermənistan təmas xəttində düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına Şəhid oldu. Aprelin 7-si isə Səbuhi Musayev doğulduğu Bərdə rayonunun Mustafaağalı kəndində son mənzilə yola salındı. Dəfn mərasiminə minlərlə rayon sakini ilə yanaşı, şəhidin qulluq etdiyi hərbi hissənin əsgərləri və zabitləri də vardı. Dəfn mərasiminin sonunda yaylım atəşi açıldı və kiçik çavuş Səbuhi Musayev uğrunda Şəhid olduğu torpağa tapşırıldı.

Səbuhi Musayev ailəli idi. Fərid adlı bir oğlu yadigar qalıb.

Göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikası-nın Prezidenti İlham Əliyevin sərəncamı ilə Səbuhi ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.





**Möhbalıyev Elşən Təvəkkül oğlu**

Şəhid Möhbalıyev Elşən 1994-cü il iyulun 23-də Bərdə rayon Otuzikilər kəndində dünyaya göz açıb. Burda orta təhsil alıb.

Müddətli Həqiqi hərbi xidmətini başa vurandan sonra Elşən hərbi işindən ayrılmayıb, ömrünü hərbiyə təlimlərə həsr etmək istəyib. Buna görə də o, Xüsusi Təyinatlı Qüvvələrin giziri kimi ordu sıralarında xidmət etməyə başlayıb.

Vətən müharibəsi başlayanda o da gənc döyüşçü kimi ön cəbhəyə gedib. Suqovuşan istiqamətində gedən döyüşlərdə fəallıq göstərib. 2020-ci il noyabrın 4-də Suqovuşanın müdafiyəsində Elşən Möhbalıyev qəhrəmancasına şəhid olub.

Subay idi. Allah rəhmət eləsin!

Vəfatından sonra E.Möhbalıyev "Kəlbəcərin azad olunmasına görə", "Suqovuşanın Azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.



**Musayev Murad Polad oğlu**

Şəhid Musayev Murad 2001-ci il oktyabrın 1-də Bərdə rayonun Əmirli kəndində doğulmuşdu. 2008-2019-cu illərdə Əmirli kənd orta məktəbini bitirmişdi.

İdmançı idi. Murad idmanı çox sevirdi. Bütün idman tədbirlərində fəallıqla iştirak edirdi. 2016–cı ildə Agdam UGM-idman mərkəzinin açıq birinciliyində 2-ci yeri tutmuşdu. Sonrakı ildə Ağdam rayon açıq birinciliyində 3-cü yerə, 2018-ci ildə Qarabağ gününə həsr edilmiş kingboksinq üzrə açıq Bərdə birinciliyində 52-kq çəki dərəcəsində 2-cı yerə çıxmışdı.

2019-cu il yanvarın 10-dan, Vətənə olan hərbi müdafiyə borcunu yerinə yetirmək üçün hərbi xidmətdə olmuşdu.

II Qarabağ müharibəsi başlayanda M.Musayev də ön cəbhədə idi. Onun döyüş yolu Fizulinin işğal altında olan kəndlərindən keçirdi. 2020-ci il 29 sentyabrda Musayev Murad elə

Fizuli istiqamıtindı gedən döyüşlərdə şəhid olmuşdur. Və doğma Əmirlidə torpağa tapşırılmışdı.

Ölümündən sonra Murad Musayev "Fizulinin azad olunmasına görə" medalı ilə təltif edilmişdi. Allah rəhmət eləsin.





**Mustafayev Əkbər Natiq oğlu**

Şəhid Mustafayev Əkbər 2000-ci il iyulun 2-də Bərdə rayonunun Mirzəxan kəndində anadan olub. Şəhid Etibar Əhmədov adına Mirzəxan kənd tam orta məktəbində təhsil alıb.

Əkbər Mustafayev 2018-2020-ci illərdə öz həqiqi hərbi xidmətini Dövlət Sərhəd Xidmətinin sıralarında keçirib. Xidmət müddəti başa çatsa da hərbi hissədən ayrılmayıb. 2020-ci ildən isə gizir hərbi rütbəsində Vətəninə xidmət edirdi.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının kiçik giziri olan Əkbər Mustafayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Had-

rut qəsəbəsinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak edib və oktyabrın 10-da Əkbər Cəbrayıl döyüşləri zamanı şəhid olub.

Bərdə rayon Mirzəxan kənd qəbirstanlığında əbədi uyuyan Əkbər subay idi. Yəqin ki, bir sevdiyi, gözaltısı da vardı....Allah rəhmət eləsin... Cənnət olan yeri daima nurla, işıqla dolsun!

Əkbər Mustafayev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdi.





**Nadirov Rəşad Nadim oğlu**

Şəhid Nadirov Rəşad 1999-cu il sentyabrın 20 - də Bərdədə anadan olub. Orta təhsilinə Bərdə şəhərindəki 3 saylı tam orta məktəbdə başlayıb. Sonra təhsilini Bakı şəhəri 61 saylı orta məktəbdə davam etdirib.

2016-cı ildə Rəşad Bakı Dövlət Universitetinə qəbul olunmuşdu. Lakin müəyyən səbəblər üzündən ali təhsili yarımçıq qaldı. 2018-ci ildə qardaşı Nadirov Elşad Nadim oğlu ilə birlikdə hərbi xidmətə yola düşdü.

27 sentyabr 2020-ci ildə başlayan II Qarabağ müharibəsində o, qardaşı Elşadla birlikdə Fizuli royonu ərazisində erməni işğalçılarına qarşı qəhrəmancasına döyüşmüşdü. Oktyabrın 20-də Füzuli rayonunun Gecəgözlü kəndi uğrunda gedən dö-

yüşlərdə Rəşad şəhidlik zirvəsinə ucaldı. Qardaşı Elşad isə yaralandı.

Rəşad 2020-ci il oktyabrın 29-da dogma Bərdənin Şəhidlər Xiyabanında dəfn olunub. Yeri cənnət, ruhu şad olsun!

Ölümündən sonra "Xocavəndin azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif olunub.





**Nayıbov Devran Fazil oğlu**

Şəhid Devran Nayıbov 1993-cü il noyabrın 30-da Bərdə şəhərində anadan olub. 2011-ci ildə Bərdə şəhər 2 saylı tam orta məktəbini bitirib. 2012-ci ildə isə həqiqi hərbi xidmətə çağırılıb.

Devranın arzusu Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etmək olduğu üçün həqiqi hərbi xidməti başa vurduqdan sonra da bu sistemdə çalışmağa başladı. Daha sonra o, kiçik gizir rütbəsində hərbi xidmətini davam etdirdi.

Xüsusi təyinatlı kimi Devran Nayıbov şanlı Aprel döyüşlərinin də fəal iştirakçısı olub. Onun ən böyük arzusu Şuşada üçrəngli bayrağımızı dalğalandırmaq idi. Buna görə də Ali Baş Komandan İlham Əliyevin hücum əmrini səbirsizliklə gözləyirdi və bu əmr verildikdən sonra böyük ruh yüksəkliyi ilə döyüşlərə atıldı. Devran döyüşlər zamanı həmişə öndə olub, digər əsgər

yoldaşları ilə düşmənə ağır zərbələr endirib. Devran Nayıbov oktyabrın 8-də Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub və şəhidlik zirvəsinə yüksəlib.

Devran Bərdə şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub.

Ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 dekabr tarixli sərəncamı ilə "Vətən uğrunda", 24 dekabr tarixli sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə", 29 dekabr tarixli sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə", 30 dekabr tarixli sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir.





**Nağıyev Yusif Bərxudar oğlu**

Şəhid Yusif Nağıyev 1 yanvar 1996-cı ildə Bərdə rayonunun Əyricə kəndində anadan olub. 2002-2013-cü illərdə həmin kəndin E. Abdullayev adına tam orta məktəbində orta təhsil alıb. 2014-cü il yanvar ayında həqiqi hərbi xidmətə çağrılıb. Həmin ilin aprel ayından N saylı hərbi hissənin xüsusi təyinatlı bölməsində xidmət keçib. Həyatını hərbi işə həsr edən Yusif 2016-cı il Aprel döyüşlərində də fəal, qorxmaz, cəngavər igid kimi iştirak edib.

27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsinə Yusif Nağıyev də təbii ki, bir döyüşçü kimi qatılıb. Füzuli rayonu uğrunda gedən döyüşlərdə iştirak edib, döyüş meydanından şəhid və yaralıların çıxarılmasında xüsusi şücaət göstərib. Hadrut istiqamətində gedən döyüşlərdə, Murovdağ yüksəkliklərin

ələ keçirilməsində və düşmənin əks-həmlələrinin qarşısının alınmasında igidliklər göstərib.

21 oktyabr 2020-ci ildə Hadrut-Şuşa istiqamətində gedən döyüşlərdə xüsusi tapşırığı yerinə yetirərkən şəhid olub. Doğulduğu Əyricə kəndində dəfn edilib

Ailəli idi. Bir övladı yadigar qalıb. Allah rəhmət eləsin!






**Nağıyev Baloğlan Müdahət oğlu**

Şəhid Baloğlan Nağıyev 1996-cı il oktyabrın 29-da Rusiyada, Tomski şəhərində anadan olub. Onun atası Müdahət Bərdənin Güloğlular kəndindən idi. O, Sovet dönəmində Tomskidə hərbi xidmətdə olmuşdu. Sonra həyatını da bu şəhərə bağlamışdı. Əsgərliyini bitirəndən sonra bu şəhərdə qalıb işləməyə başladı. Burda bir rus xanımla evləndi. İki oğlu oldu. Sonra yollarını ayırmalı oldular. Bundan sonra ata hər iki oğlunu Güloğlular kəndinə gətirib ana və bacısının himayəsinə verdi. Beləcə, Baloğlan qardaşı ilə bərabər nənənin himayəsində böyüdü. Orta təhsilini başa vurdu. Müddətli hərbi xitmətini də yerinə yetirdi.

II Qarabağ müharibəsi başlayanda Baloğlan da könüllü olaraq Vətənin müdafiyəsinə qalxdı. O, Suqovuşan istiqamətində döyüşlərdə fəallıq göstərmiş, düşmənə lazımınca zərbələr endirmişdi. Oktyabrın 6-da bu dəyüşlərdə də həlak olmuşdu.

B. Nağıyevin Məzarı Güloğlular gəndindədir. Subay idi.

Ölümündən sonra o, "Vətən uğrunda", "Suqovuşanın azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.





**Nərimanov İdris Nazim oğlu**

Şəhid İdris Nərimanov 10 iyul 2000-ci ildə Xanağalı kəndində dünyaya göz açmışdı. Burda Xanağalı kənd orta məktəbini bitirmişdi. Müddətli hərbi xidmətini başa vurmuşdu. Lakin hərbi hissədən ayrılmaq istəmirdi. Odur ki, müddətdən artıq hərbi xidmətini davam etdirirdi. Çavuş idi.

II Qarabağ müharibəsi başlayanda o da Azərbaycan Ordusunun tərkibində işğalçı ermənilərə qarşı döyüşlərdə fəallıqla iştirak edirdi. Suqovuşan - Ağdərə istiqamətində torpaqların azadlığı üçün qəhrəmanlıqlar göstərmişdi. Ağdərə yüksəkliklərinin azad olunmasında, onun qorunub saxlanılmasıda İdrisin də bir döyüşçü kimi əməyi böyükdü.

İ.Nərimanov elə bu istiqamətdə döyüşərkən düşmən gülləsinə tuş gəlmiş və 10 Oktyabr 2020-ci ildə həlak olmuşdu.

İdris doğma kəndlərində dəfn olunub. Subay idi. Allah rəhmət eləsin!

Ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad edilməsinə görə" medalları ilə təltif edilmişdi.





**Paşayev Ramil Şakir oğlu**

Şəhid Ramil Paşayev 1994-cü il iyulun 28-də Bərdə rayonunun Əyricə kəndində anadan olub. Əyricə kənd orta məktəbini bitirib. Sonra Vətənə olan hərbi borcunu yerinə yetirib. Lakin hərbi işindən uzaqlaşmayıb. O, orduda kiçik çavuş rütbəsində xidmət edib.

Azərbayca Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Ramil Paşayev də bir hərbiçi oğul kimi iştirak edib. Ramil Azərbaycan ordusunun tərkibində Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə igidlik göstərib. Müharibənin ilk günlərində Ramili tanıyanlar onun çox şücayətlərinin şahidi olub. Paşayev düşməndən Vətənin, həlak olan dostlarının intiqamını ala bilib.

R.Paşayev oktyabrın 3-də Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Əyricə kənd qəbristanlığında dəfn olunub. Subay idi. Yeri behişt olsun!

Ölümündən sonra Respublika Prezidentinin sərəncamları ilə "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.





**Ramazanlı Əlizamin Umud oğlu**

Şəhid Əlizamin Ramazanlı 2000-ci il mayın 9-da Bərdə rayonunun Şirvanlı kəndində anadan olub. Şirvanlı kənd orta məktəbini bitirib. Onun ailəsi Xocalının Kosalar kəndindən idi. Xocalı faciəsindən sonra doğma yurd-yuvalarından didərgin düşmüş, Bərdə rayonunun Şirvanlı kəndində məsgunlaşmışdılar.

Əlizamin Ramazanlı 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə Vətənə olan oğul borcunu yerinə yetirmiş, 2019-cu ildən isə "gizir" hərbi rütbəsində Dövlət Sərhəd Xidmətinin sıralarında xidmət etmişdi.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının kiçik giziri olan Əlizamin 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin

azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı artıq ön cəbhədə idi. O, Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak etmiş, bacardığı qədər Xocalının intiqamını düşməndən ala bilmişdi.

Əlizamin Ramazanlı oktyabrın 16-da Hadrut döyüşləri zamanı şəhid olmuş, Şirvanlı kənd qəbristanlığında torpağa tapşırılmışdı. Subay idi.

Ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin alınmasına görə" medalları ilə təltif edilmişdi.





**Rəhimli Baxış İlqar oğlu**

Şəhid Baxış Rəhimli 19 fevral 1996-cı ildə Bərdə rayon, Bala Qacar kəndində anadan olmuşdur. 2002-ci ildə Bərdə rayonundakı I Qarabağ müharibəsində şəhid olmuş Heydər Xəliloğlunun adını daşıyan Qullar kənd 9-illik məktəbinə daxil olmuş, 2004-cü ildən təhsilini Bərdə şəhər Akademik Zərifə Əliyeva adına məktəb-liseydə davam etdirmişdir. 2013-cü ildə həmin məktəbi bitirən Baxış, 2014-cü ildə Türkiyənin Kastamonu Universitetinə qəbul olmuş, 2019-cu ildə "İktisadi və İdari Bilimler" fakultəsində ali təhsil almışdı.

Universiteti bitirdikdən sonra Vətənə dönən Baxış 2019-cu ilin oktyabr ayında Həqiqi hərbi xidmətə çağrılmışdı. Onun bir illik hərbi xidmətinin son günlərində II Qarabağ müharibəsi başladı. Çox bacarıqlı topçu olan Baxış, ön cəbhədə döyüşmüş,

neçə - neçə düşmən texnikasını məhv etmişdi.

O, II Qarabağ müharibəsi zamanı döyüşlərdə böyük şücaət göstərmişdir. Müharibənin əvvəlindən sonuna kimi vuruşmuş, 2020-ci il noyabrın 9-da saat 17:00 radələrində Şuşa uğrunda gedən döyüşlərdə, müharibənin bitməsinə, Böyük Qələbəyə, Zəfərə saatlar qalmış qəhrəmancasına şəhid olmuşdur.

İndi Bala Qəcər kənd qəbristanlığında uyuyur. Yeri behişt olsun!!!

Ölümündən sonra "Şərəf" ordeni və "Vətən Uğrunda" medalı ilə təltif edilmişdi.





**Rəhimli Elcan Ədalət oğlu**

Şəhid Elcan Rəhimli 1992-ci il avqustun 26-da Alpoud kəndində anadan olmuşdu. Burda orta təhsilini başa vurmuşdu.

2020-ci il sentyabrın 21-dən N hərbi hissəsində hərbi təlimlərə başlamlşdı. 27 sentyabrdan Goranboyun müdafiyəsində fəal iştirak edirdi. 20 oktyabr 2020-ci ildə Tapqaraqoyunluya atılan mərmilərin partlayışından həlak olmuş, şəhidlik zirvəsinə yüksəlmişdi.

Ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdi.

Ailəli idi. Bir övladı yadigar qalıb.





**Rzayev Ceyhun İsmayıl oğlu**

Şəhid Ceyhun Rzayev 1994-cü il sentiyabrın 16-da Bərdə şəhərində anadan olmuşdu. Onun valideynləri I Qarabağ müharibəsi dövrü ermənilərin hücumu nəticəsində Laçından qaçqın düşmüşdülər. Bərdəyə sığınmış, burda məsgunlaşmışdılar. Ceyhun 2000-2011-ci illərdə Bərdə şəhər 7 saylı tam orta məktəbdə təhsil almışdı. İdmanı, xüsusilə güləşi çox sevirdi, idman tədbirlərində fəal iştirak edirdi.

2012-ci ildə o, həqiqi hərbi xidmətə çağrıldı. Hərbi təlimlərdə sevə-sevə iştirak etdi. 2014-cü ildə hərbi borcunu yerinə yetirib geri döndü. Lakin o, hərbi hissədən, öz hərbi işindən ayrılmaq istəmirdi. Çünki düşmən hələ onun doğma rayonunda - Laçında at oynadırdı. Odur ki, Ceyhun 2014-cü ildə Daxili İşlər

Nazirliyinin Daxili Qoşunlar Qərargahının N saylı hərbi hissəsində xüsusi təyinatlı dəstədə müddətdən artıq hərbi xidmət qulluqçusu kimi şərəfli işini davam etdirməyə başladı.

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən II Qarabağ müharibəsinə öz rəşadəti ilə C.Rzayev də qoşuldu. 27 sentyabr 2020-ci il tarixdən o, Füzuli , Cəbrayıl, Hadrut, Horadiz, Zəngilan, Qubadlı, Şuşada gedən döyüşlərdə böyük hünər, cəsarət göstərmiş, düşməndən öz intiqamını almışdı. Və 07.11.2020-ci il tarixdə Şuşa şəhərində Qələbəyə 3 gün qalmış qəhrəmancasına şəhidlik zirvəsinə ucalmışdır.

Ceyhun İsmayıl oğlu Rzayev Bərdə şəhərində Şəhidlər Xiyabanında uyuyur. Subay və ailənin tək oğlu idi. Valideynləri ilə bərabər yeganə bacısı da indi onunla qürur duyur və azad Laçına gedəcəkləri günü səbrsizliklə gözləyirlər!





**Süleymanov İlkin Mahir oğlu**

Şəhid İlkin Süleymanov 1983-cü ildə Kələntərli kəndində anadan olmuşdu. Burda orta təhsilini başa vurmuşdu. Müddətli hərbi xidmətini də bitirmişdi. Lakin İlkin ömrünü hərbi işə sərf etmək istəyirdi. Odur ki, hərbi qulluğunu davam etdirdi. Orduda Baş gizir kimi hərbi təlimlərdə xüsusi fəallıq göstərirdi.

Azərbaycan Ordusunun tərkibində Ilkin Süleymanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması

üçün başlanan Vətən müharibəsində Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib və o, oktyabrın 9-da Suqovuşan döyüşləri zamanı da şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İlkin Süleymanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə, 29.12.2020-ci il tarixli sərəncamı ilə “Suqovuşanın azad olunmasına görə” medalı ilə, 30.12. 2020-ci il tarixli sərəncamı ilə də “Hərbi xidmətlərə görə” medalı ilə təltif edilib.

Ailəli idi. Üç övladı yadigar qalıb. Allah rəhmət eləsin!






**Şəmilov Azər Elyas oğlu**

Şəhid Azər Şəmilov 1971-ci il avqustun 13-də Tərtər rayonunun Qapanlı kəndində anadan olub. 1978-1986-cı illərdə Soyulan kənd tam orta məktəbində, 1986-1988-ci illərdə isə Bakıda Kimya-Biologiya Təmayüllü Liseydə təhsil alıb. 1994-2000-ci illərdə Azərbaycan Tibb Universitetində (ATU) ali təhsil alıb.

Sonralar Şəmilovlar ailəsi Bərdə rayonunun Kətəlparaq kəndinə köçüb burda yaşamağa başlayıblar.

Azər 1988-1990-cı illərdə Sovet Ordusunun sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 1991-1994-cü illərdə Birinci Qarabağ müharibəsində iştirak edib.

Azərbaycan Ordusunun tibb xidməti leytenantı olan Azər Şəmilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın və Talışın azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçiləri

döyüş meydanından çıxarıb. Onlara ilk tibbi yardım göstərib. Neçə-neçə döyüşçünü ilk yardımdan sonra hərbi hissəyə qaytarıb ki, onlar yenidən döyüş meydanına atılıblar.

Azər Şəmilov oktyabrın 14-də Talış döyüşləri zamanı şəhid olub. Bərdə rayonunun Kələntərli kəndində dəfn olunub. Ailəli idi. İki övladı yadigar qalıb.

Ölümndən sonra A. Şəmilov "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.





**Şükürov Sərvan Sərxan oğlu**

Şəhid Şükürov Sərvan 1998-ci il avqustun 8-də Bərdənin Kələntərli kəndində doğulub, böyüyüb. Burda orta təhsilini almışdı.

Vətənə olan oğul borcunu da ləyaqətlə yerinə yetirmişdi, yəni müddətli hərbi xidmətini də keçmişdi. Lakin sonra yenidən sevdiyi hərbi xitmətə qayıtdı. Azərbaycan Ordusunun cavuşu kimi hərbi tapşırıqları yüksək səviyyədə yerinə yetirirdi.

Sərvan II Qarabağ, Vətən müharibəsi başlayanda artıq ön cəbhədə idi. O, Azərbaycan ordusunun tərkibində Talış–Suqovuşanın azad olunması uğrunda işğalçı erməni ordusunun darmadağın edilməsində igidliklə iştirak edirdi. 2020-ci il oktyabrın 3-də Sərvan elə Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Doğma Kələntərli kəndində torpağa tapşırılmışdı. Allah rəhmət eləsin!

Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunmuşdu.



**Tağızadə Cahid Vahid oğlu**

Şəhid Cahid Tağızadə 12 fevral 1988-ci ildə Bərdə rayonunun Mirzalıbəylı kəndində anadan olmuşdur. 1995-2006-cı illərdə Əsman İsmayılov adına Mirzalıbəyli kənd tam orta məktəbində təhsil almışdı. Vətənin çağrışı ilə o, 2008-ci ildə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında hərbi xidmətdə olmuşdur. Uşaqlıqdan hərbiyə böyük marağı olduğu üçün hərbi işindən ayrılmayan Cahid Gizir hərbi rütbəsiylə 2009-2010 illərdə Daxili Qoşunların xüsusi təyinatlı dəstəsində xidmət etmişdir.

2013-cü ildə Türkiyənin "Eğirdir İsparta Dağ Komanda Okulu"da "Dağcı Komanda kursu" nu da bitirmişdi. Xidmət etdiyi illər ərzində Cahid qüsursuz xidmətinə görə dəfələrlə medal və müxtəlif mükafatlara layiq görülmüşdür.

C. Tağızadə Vətən müharibəsinin ilk günlərindən ön cəbhədə olmuş, Murovdağ yüksəkliyində, Füzuli, Cəbrayıl uğrunda

gedən döyüşlərdə fəallıq göstərmişdi. Həmin ərazilərin düşmən işğalından azad olunmasında xüsusi şücaəti, qəhrəmanlığı, qorxmazlığı, döyüşgənliyi ilə yadda qalmışdı. Döyüşdüyü müddətdə bir çox erməni postunu, erməni texnikasını və canlı qüvvəsini məhv etmişdir.

2 oktyabr 2020-ci ildə döyüş tapşırığını yerinə yetirərkən C. Tağızadə qəhrəmancasına şəhid olmuşdur. O, 3 oktyabr 2020-ci il tarixdə doğulduğu Mirzalıbəyli kəndində doğma torpağa tapşırılmışdı.

Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən Gizir Tağızadə Cahid Vahid oğlu ölümündən sonra "Vətən Uğrunda" və “Kəlbəcərin azad olunmasına görə” medallarına layiq görülmüşdü.





**Təhməzov Elzamin Kamal oğlu**

Elzamin 1979-cu il oktyabrın 26-da Bərdə rayonunun Şirvanlı kəndində anadan olub. Burda böyüyüb, Şirvanlı kənd orta məktəbini bitirib. Müddətli hərbi xidmətini başa vurandan sonra o, həyatını Müstəqil ölkəmizin müstəqil ordusunun formalaşmasına həsr etmişdi. Polkovnik-leytinant rütbəsinə qədər yüksəlmişdi.

Ə. Təhməzov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Cəsur, qorxmaz insan, polkovnik-leytenant olan E. Təhməzov sentyabrın 28-də elə Suqovuşan döyüşləri zamanı şəhid olub. Bərdə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilib.

Əslən Laçın rayonunun Malxələf kəndindən idi. O, Böyük Qələbəmizi, Zəfər günümüzü görməsə də müqəddəs torpaqlarımızın mütləq azad olunacağına ürəkdən inanırdı.

Ailəli idi. 2 qız övladı yadigar qaldı.

Biz onu bərdəlilərdən ayırmadıq. Çünki o bu torpaqda böyüdü, bu rayonun adından döyüşlərə atıldı və bu rayonda əbədi uyuyur. Yeri behişt olsun!

Ölümündən sonra 3-cü dərəcəli “Rəşadət” ordeni, “Vətən uğrunda” və “Suqovuşanın azad edilməsinə görə” medalları ilə təltif edilib.





**Yaqublu Yaqub İlham oğlu**

Şəhid Yaqublu Yaqub İlham oğlu 1997-ci il iyunun 1-də Kələntərli kəndində doğulmuşdur. Burada orta təhsilini almışdı.

Müddətli hərbi xidmətini başa vurandan sonra da Yaqub Hərbi xidmətindən ayrılmır. O, N saylı hərbi hissənin çavuşu idi.

2020-ci il sentyabr ayının 27-də başlanan Vətən müharibəsində Yaqub da fəal iştirak edib. O, Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərib. 2020-ci il oktyabrın 22-də növbəti döyüşdə qəhrəmancasına vuruşaraq şəhid olub.

Məzarı doğma Kələntərli kəndindədir. Subay idi. Allah rəhmət eləsin.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.



**Yusifov Elməddin Mahir oğlu**

Şəhid Elməddin Yusifov 1995-ci il aprelin 28-də Bərdə rayonunun Mirzəalıbəyli kəndində doğulmuşdur. Burda orta təhsilini başa vurmuşdu. Vətənə olan hərbi xidməti borcunu da yerinə yetirmişdi.

II Qarabağ müharibəsi - Vətən müharibəsi zamanı Elməddin də Azərbaycan Ordusunun tərkibində ön cəbhədə erməni faşizminə qarşı döyüşlərdə iştirak edirdi. O, Suqovuşanın azadlığı istiqamətində gedən döyüşlərdə igidlik göstərirdi.

Elməddin 2020-ci il noyabrın 2-də qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucaldı. Doğma Mirzəalıbəyli kəndində dəfn olunmuşdu. Subay idi.

Ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda", "Suqovuşanın azad edilməsinə görə" medalları ilə təltif edilmişdi. Allah rəhmət eləsin!



**Yusifzadə Xudayar Müslüm oğlu**

Şəhid Xudayar Yusifzadə 1998-ci il iyulun 15-də Bərdə şəhərində anadan olub. Tanınmış musiqiçi olan atasını tez itirib. Ailədə dörd uşaq olublar. Üç qardaş, bir bacı. Sonbeşik Xudayar atasının yolunu davam etdirmək üçün Bərdədəki Bülbül adına 1 saylı Uşaq İncəsənət Məktəbini bitirib.

Azərbaycan ordusunun tərkibində müddətli hərbi xidmətini başa vurduqdan sonra Xudayar Sərhəd Qoşunlarının giziri kimi hərbi xidmətini davam etdirmişdi.

Tovuz hadisələrində sonra könüllü olaraq döyüşmək üçün hərbi qüvvələrə qoşulub. Xudayar Yusifzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı əvvəlcə Füzuli rayonunda sərhəd məntəqəsində xidmət edib, daha sonra isə Cəbrayılın və Zəngilanın

azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Zəngilanın Ağbənd kəndinin azad olunmasında xüsusi şücaət göstərib və ağır yaralanıb. Oktyabrın 22-də isə elə burada şəhid olub. Bərdə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub. Subay idi. Ondan yadigar qalan öz səsində “Vətən yaxşıdır” nəğməsidir. Xalq tərəfindən böyük sevgi ilə qarşılanan bu nəğmə onun ölümündən sonra “Xudayar təsnifi” kimi tarixə düşdü. Yeri behşit olsun!

Ölümündən sonra Respublika Prezidenti İlham Əliyevin sərəncamı ilə “Azərbaycan Bayrağı” ordeni və “Vətən uğrunda” medalı ilə təltif edilib.





**Zeynalov Turqut Fikrət oğlu**

Turqut 1996-cı il avqustun 20-də Bərdə şəhərində anadan olub. 2002-2011-ci illərdə Bərdə şəhərində yerləşən F. Muradov adına 7 saylı tam orta məktəbində təhsil alıb. 2011-2015-ci illərdə isə Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecini bitirib. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvəllərinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2019-cu ildən Goranboy rayonunda yerləşən N saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

2020-ci ilin sentyabrın 27-də Vətən müharibəsi başlayanda Turqut da ön cəbhəyə gedib. Suqovuşan istiqamətində döyüşlərdə fəal iştirak edib və elə həmin gün, yəni sentyabrın 27-də qəhrəmancasına həlak olub. Bərdə rayonunda ilk şəhid idi. Sentyabrın 28-də o, Bərdə Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi.

Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdi.



**Ziyadov Fəqan Ziyad oğlu**

Şəhid Fəqan Ziyadov 1995-ci ildə Bərdə rayon Mustafaağalı kəndində doğulmuşdur. Burda orta təhsilini başa vurmuşdu. Hərbi xidmətə burdan yola düşmüşdü. Xidmətini uğurla başa vurub kəndə qayıtmışdı. Lakin Hərbi işə olan marağı, həvəsi onu yenidən N saylı hərbi hissəsinə gətirmişdi. Döyüş təlimlərini ləyaqətlə yerinə yetirirdi. Axı düşmən hələ doğma torpaqlarda meydan sulayırdı. Odur ki, Hərbi hissənin çavuşu olan Fəqan işğalçı Erməni ordusunu məhv edəcəkləri günü səbirsizliklə gözləyirdi. Nəhayət o gün gəldi! Ali Baş Komandan II Qarabağ müharibəsinin başlandığını elan etdi.

Demək, Vətən müharibəsi başlayanda Fəqan Ziyadov da Azərbaycan Ordusunun tərkibində ön cəbhədə idi. Vətənpərvər, yurdsevər bir övlad kimi o, Talış, Suqovuşan, Ağdərə, Tərtər istiqamətində gedən döyüşlərdə fəal iştirak etmişdir. Bir tankçı kimi də düşmənə ağır zərbələr endirmişdi.

21 Oktyabr 2020-ci ildə Fəqan Tərtər istiqamətində gedən döyüşlərdə ağır yaralanmış və 30 oktyabr 2020-ci ildə isə şəhidlik zirvəsinə ucalmışdır.

İndi doğulub boya-başa çatdığı Mustafaağalı kənd qəbirstanlığında əbədi uyuyur. Subay idi.

Ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad edilməsinə görə" medalları ilə təltif edilmişdi. Allah rəhmət eləsin!



# BƏRDƏNİN MÜLKİ ŞƏHİDLƏRİ

Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən 2020-ci il oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndinə, oktyabrın 28-də isə Bərdə şəhərinə raket hücumlar nəticəsində 27 nəfər həlak olmuş, 70 nəfərdən artıq insan yaralanmışdı.

Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini, habelə elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgəyə aidiyyəti olmayan şəhər və rayonlarımıza mütamadi olaraq raket və ağır artilleriya zərbələri endirir. 2020-ci il oktyabrın 28-də saat 13 radələrində düşmənin silahlı birləşmələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə hər birinin içərisində 72 ədəd 9N235 saylı, ümumilikdə 144 bombacıq olan "Smerç" tipli əməliyyat-taktiki təyinatlı 9M525 gəlpəli böyük dağıdıcı qüvvəyə malik ballistik "claster" tipli 2 ədəd raket zərbələrinin endirilməsi nəticəsində 5-i qadın olmaqla, 21 nəfər həlak olmuş, 8-i uşaq, 15-i qadın olmaqla 70 şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır.

Bundan başqa, raket zərbələrinin təsirindən 30-dan artıq mülki infrastruktur obyektinə, dinc sakinlərə məxsus 20-dən

artıq fərdi yaşayış evlərinə və 22 nəqliyyat vasitəsinə xüsusilə külli miqdarda ziyan dəymişdir.

Faktla bağlı Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik–təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.12 (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə), 100.2 (təcavüzkar müharibəni aparma) və digər maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilmişdir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bəyan edib ki, Ermənistanın işğalçı və təcavüzkar mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, beynəlxalq və milli qanunvericiliyə əsasən təqsirkar şəxsərin məsuliyyətə cəlb edilməsi və sanksiyaların tətbiq olunması məqsədilə beynəlxalq qurumlara müraciət edilməklə mümkün olan bütün tədbirlər görüləcək.

2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri və Ermənistan Silahlı Qüvvələri arasında Dağlıq Qarabağda davam edən müharibə. Bu müharibə 1995-ci ildən sonra müşahidə olunan ən gərgin döyüşlərdir. Müharibə zamanı dəfələrlə 1949-cu il Cenevrə Konvensiyalarının əsas norma və prinsipləri pozularaq müharibə zonasından uzaqıda olan yaşayış məntəqələridə hücumlara məruz qaldı.

27 oktyabr hücumu 5 nəfər öldü, 13 nəfər isə yaralandı. Ölənlərin siyahısı:

1. 1959-cu il təvəllüdlü Aybəniz Əşrəf qızı Əhmədova

2. 1961-ci il təvəllüdlü Almaz Salah qızı Əliyeva (2020-ci il oktyabrın 27-də xəsarət almış, 2020-ci il oktyabrın 28-də isə vəfat etmişdir)

3. 1970-ci il təvəllüdlü Ofeliya Məcid qızı Cəfərova

4. 1980-cı il təvəllüdlü Ehtiram Xəlil oğlu İsmayılov

5. 2013-cü il təvəllüdlü Aysu Rövşən qızı İsgəndərova

Oктyabrın 28-də saat 13:40 radələrində Ermənistan Silahlı Qüvvələri tərəfindən Bərdə şəhərinə növbəti hücumlar baş verdi. Hücumlardan dərhal sonra Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hiкmət Hacıyev özünün twitter hesabında *"Ötən gün кlaster silahları ilə Bərdədə mülкi şəxslərin ölümündən heç br dərs çıxarılmadı. Ermənistan hərbi işğala və müharibə cinayətinə son qoymalıdır."* yazdı. Bir müddət sonra isə hücumların Ermənistan ərazisində "SMERCH" Reaкtiv Yaylım Atəş Sistemindən reallaşdırıldığı müəyyən olundu.

21 nəfər həlak oldu, 60 nəfər isə yaralandı. Şəhidlərin siyahısı:

1. 1940-cı il təvəllüdlü Yalçın Rizvan oğlu İsgəndərov
2. 1947-ci il təvəllüdlü Ağamoğlan Bəylər oğlu Quliyev
3. 1950-ci il təvəllüdlü Hümbət Süleyman oğlu Süleymanov
4. 1961-ci il təvəllüdlü Solmaz Sədrəddin qızı Qasımova
5. 1969-cu il təvəllüdlü Fazil Hacı oğlu Hacıyev
6. 1969-cu il təvəllüdlü Leyla Elmir qızı Mustafayeva
7. 1971-ci il təvəllüdlü Məhərrəm Ənvər oğlu Mustafayev
8. 1972-ci il təvəllüdlü Çərкəz Xanlar oğlu Mirzəliyev
9. 1972-ci il təvəllüdlü Gülşən Mehrab qızı Hüseynova

10. 1975-ci il təvəllüdlü Mirsaqi Yusif oğlu Əhmədov
11. 1977-ci il təvəllüdlü İntiqam Ələmdar oğlu Xıdırov
12. 1983-cü il təvəllüdlü Əsgər Mahir oğlu Allahverdiyev
13. 1984-cü il təvəllüdlü Ruslan Məhəmməd oğlu Abbasov
14. 1986-cı il təvəllüdlü Sadiq Sahib oğlu Əliyev
15. 1988-ci il təvəllüdlü Fuad İsa oğlu İsmayılov
16. 1990-cı il təvəllüdlü Amil Fazil oğlu Cəfərov
17. 1990-cı il təvəllüdlü Dəyanət Tahir oğlu Kazımov
18. 1990-cı il təvəllüdlü Vasif Vaqif oğlu İsmayıllı
19. 1991-ci il təvəllüdlü Rəşaf Vaqif oğlu Şəfiyev
20. 1995-ci il təvəllüdlü Tükəzban Çərkəz qızı Mirzəliyeva
21. 1995-ci il təvəllüdlü Niftalı Səlim oğlu Paşayev



***Düşmənin Bərdə terroru***

## ULU BƏRDƏM...

Yenə havalanıb o qarı düşmən...
Al-qana boyanıb yenə də sinən...
Belə döyüşlərdən çox görmüsən sən...
Ulu Bərdəm!

Çox görmüsən belə azğın, namərdi,
Bu dünyanın ən qədimi, comərdi -
Yaşarısan... Adladarsan bu dərdi,
Ulu Bərdəm!

Qarabağa hər vaxt arxa, dayaqsan,
Yatmırsan ki... canım-gözüm, oyaqsan!
Bu düşməni yenə namərd qonaq san,
Ulu Bərdəm!

Əsrlərlə yağmalandın, yaşadın sən,
Əsrlərlə damğalandın, yaşadın sən,
Əbədisən, hər zirvəni aşan da sən,
Ulu Bərdəm!

Özü öz qanına axır bələndi,
Ermənininin son çabası... necə diləndi...
Ürəkdən gülənlər sonda güləndi,
Uca Bərdəm! Ulu Bərdəm!!!

Bütün bunlardan sonra, nəhayət ki, Qarabağ bizimdir!
Qarabağ-Azərbaycandır!

## QARABAĞA MƏKTUB

Yağıların çoxalıb,
Sinən üstdən yol salıb,
Nuh Nəbidən qalıb
Yaman üz, Qarbağım!

Gözəlsən, tayın yoxdur,
Eşqinə düşən çoxdur,
Qismətləri bir oxdur,
Atdıq düz, Qarabağım!

Şuşam yenə qalandır,
Ağdam ağbəxt olandır,
Arxanda Beyləqandır,
Sərvinaz Qarabağım!

Yevlax, Bərdə bərəndir,
Ağcabədi Ərəndir,
Xankəndin gen dərəndir,
Qaragöz Qarabağım!

Dönməsinlər yamana,
Düşməsinlər gümana
Batdılar ki, dumana
Axır üz, Qarabağım!

İgidlərin nərəsi-
“Qarabağ şikəstəsi”,
Bu dağlarda ötəsi,
Bu da söz, Qarabağım!!!

# KİTABIN İÇİNDƏKİLƏR

BƏRDƏM MƏNİM.......................................................................... 11

İŞĞALDAN BÖYÜK ZƏFƏRƏ... ......................................................18

Sərhəd Zöhrabbəyov ....................................................................22

BU PAYIZ... ...................................................................................24

DARIXMA, ŞUŞAM ...................................................................... 26

UNUDULMAZ ŞƏHİDLƏRİMİZ... ................................................... 29

BƏRDƏNİN MÜLKİ ŞƏHİDLƏRİ ...................................................125

ULU BƏRDƏM... ..........................................................................129

QARABAĞA MƏKTUB ..................................................................130

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Dizayner – Məhiyəddin SEYİDOV

*Kitab “AFPoliqrAF” mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru | Tel.: +994 (12) 510 96 74
afpoliqraf@gmail.com | Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 26.07.2021
Çapa imzalanmışdır: 27.09.2021
Qarnitura: Brandon Text, Times New Roman, Calibri
Şərti çap vərəqi: 8,25
Formatı: 64x90 $^1/_{16}$
Tiraj: 100



**Bahar Bərdəli**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

**AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi,**
**1995-ci ildən Azərbaycan yazıçılar Birliyinin üzvü,**
**Yazıçı, şair. İyirmiyə yaxın bədii-elmi kitabların müəllifidir.**

9 789952 541441